Oktyabr 2015

# PwC Azerbaijan Times

## 4 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Lisenziya qanunvericiliyinə dəyişikliklər**
- **Sahibkarlıq fəaliyyətində yoxlamaların müvəqqəti dayandırılması**
- **Dövlət büdcəsinin təsdiqi**
- **Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilən dəyişikliklər**




pwc

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2015 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Lisenziya qanunvericiliyinə dəyişikliklər*

Azərbaycan Respublikası Prezidentinin 19 Oktyabr 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərmanına əsasən:

1. Xüsusi razılıq (lisenziya) tələb olunan sahibkarlıq fəaliyyətinin bütün növlərinə dair lisenziyaların (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) verilməsi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilmişdir.

2. Lisenziya aşağıdakı qaydalara uyğun olaraq verilir:

2.1. Sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq zəruri hesab edildikdə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə lisenziya verilməsi ilə əlaqədar aidiyyəti dövlət orqanlarından rəylərin alınması üzrə səlahiyyət verilir;

2.2. Aidiyyəti dövlət orqanı müəyyən edilmiş müddət ərzində rəy bildirmədikdə rəy müsbət verilmiş hesab edilir;

2.3. Xüsusi razılıq (lisenziyaların) verilməsi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilir.

3. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırılır ki:

3.1. Bir ay müddətində xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının minimuma endirilməsi və xüsusi razılıq (lisenziya) verilmə prosedurunun asanlaşdırılması ilə bağlı təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2 Lisenziyaların və sertifikatların elektron formada verilməsinin təmin edilməsinə yönəlmiş "Elektron lisenziya" portalının yaradılması prosesini surətləndirilsin.

4. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 5 sentyabr 2012-ci il tarixli fərmanına "ASAN xidmət" mərkəzləri tərəfindən həyata keçirilən xidmətlər siyahısına bütün xüsusi razılıqların (lisenziyaların) (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) verilməsi müddəası əlavə edilsin.

5. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edildi ki, təqdim edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanun layihəsinə baxılmasını sürətləndirsin.

### *Sahibkarlıq fəaliyyətində yoxlamaların müvəqqəti dayandırılması*

Qanunvericilik təşəbbüsü əsasında 19 oktyabr 2015-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən müzakirə üçün Milli Məclisə göndərilmiş "Sahibkarlıq fəaliyyətində yoxlamaların dayandırılması" haqqında qanun layihəsinə əsasən 1 noyabr 2015-ci il tarixindən başlayaraq sahibkarlıq fəaliyyətində bütün yoxlamalar iki il müddətinə dayandırılır.

Qeyd olunan qanun layihəsi vergi orqanları tərəfindən həyata keçirilən yoxlamaların və müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş insanların həyat və sağlamlığına, ictimai asayişə və dövlətin iqtisadi maraqlarına təhlükə yarada bilən halların aradan qaldırılması üçün keçirilən audit və yoxlamaların dayandırılmasını nəzərdə tutmur. Bu yoxlamalar qanunvericiliklə müəyyən edilmiş qadağan və məhdudiyyətlər çərçivəsində həyata keçirilməyə davam edəcək.

Qanun layihəsi və Azərbaycan Prezidentinin təlimatına müvafiq olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən həyata keçirilən bütün yoxlamaların dayandırılması barədə qərar qəbul etmişdir. Belə ki, istehlak bazarına nəzarət inzibati məsuliyyətə səbəb olmayan vasitələrlə, yeni müşahidələr, nümunələrin ekspertizası, baxış və digər yollarla həyata keçiriləcək. Yoxlamalar müstəsna hallarda, ancaq əldə edilmiş məlumatlara və şikayətlərə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə razılaşdırıldıqdan sonra həyata keçirilə biləcək.

### *Dövlət büdcəsinin təsdiqi*

2016-cı ilin dövlət büdcəsi Milli Məclis tərəfindən 20 oktyabr 2015-ci il tarixində təsdiq olunmuşdur.

Dövlət Büdcəsi haqqında Qanunun 1-ci maddəsində Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin gəlirləri 14.57 milyard manat, xərcləri 16.26 milyard manat məbləğində təsdiq edilmişdir.

### *Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilən dəyişikliklər*

Azərbaycan Respublikası Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi haqqında qanun layihəsi Milli Məclis tərəfindən müzakirə edilir. Milli Məclis tərəfindən qanunun qəbulundan sonra Azərbaycan Prezidentinin müvafiq fərman verəcəyi gözlənilir. Bununla bağlı hər hansı yenilik məlum olan kimi sizi məlumatlandıracayıq.

Qeyri rəsmi məlumatlara əsasən layihə 41 dəyişiklikdən ibarətdir. Aşağıda bəzi dəyişiklikləri nəzərinizə çatdırırıq:

1. Vergi orqanlarına, vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi ödəyicisi olan fiziki və ya hüquqi şəxslərin icra orqanlarının rəhbərlərinin ölkədən getmək hüququnun müvəqqəti dayandırılması və həmin məhdudlaşmanın aradan götürülməsi üçün məhkəməyə müraciət etmək hüququnun verilməsi;

2. Sadələşdirilmiş vergi ödəyiciləri (ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan) tərəfindən nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına yol verildikdə təqvim ili ərzində 1-ci, 2-ci və 3 və daha çox dəfə üçün cərimələri müvafiq olaraq 2,000, 4,000 və 6,000 manat təşkil etməsi;

3. İdman mərc oyunlarından əldə edilən uduşlardan mənbədə tutulmaqla 10 faiz dərəcə ilə fiziki şəxslərin gəlir vergisinə cəlb edilməsi;

4. Fiziki şəxsin əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 250 manat əvəzinə 2,500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli (hal hazırda 140 manat), illik gəliri 30,000 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azad olunması;

5. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən konkret sahənin inkişafını təmin etmək məqsədi ilə, konkret dövr üçün nəzərdə tutulan, müasir texnologiyanı təmin edən avadanlıqların idxalının ƏDV-dən azad olunmasının ləğv edilməsi;

6. Əlavə Dəyər Vergisi ödəməkdən azad edilmə siyahısına ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar gətirilən avadanlıq və materiallar (müvafiq icra hakimiyyəti orqanı tərəfindən idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edilmək şərti ilə), xüsusi iqtisadi zonaya idxal edilən malların və lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalının daxil edilməsi.

7. Faydalı qazıntılar üzrə (üzlük daşları istisna olmaqla) mədən vergisinin dərəcələrinin 50 – 300 faiz arası artırılması;

8. İllik dövriyyəsinin həcmindən asılı olmayaraq, mülkiyyətində olan, həmçinin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən (fiziki şəxsin minimum 5 il müddətinə yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi istisna olmaqla) şəxslərin əldə etdikləri gəlirə, təqdim edilmiş obyektin hər kvadrat metri üçün 15 manat sadələşdirilmiş verginin tətbiqi;

9. Ticarət fəaliyyəti və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnun verilməsi və bu halda müvafiq olaraq 6 faiz və 8 faiz vergi dərəcəsinin müəyyən edilməsi;

10. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün hər kvadrat metrə görə 10 manat sadələşdirilmiş vergi əvəzinə, binanın dövlətə ayrılan hissəsi istisna olmaqla hər kvadrat metri üçün 45 manat və Bakı şəhəri üzrə zonalardan asılı olaraq 1,2 – 4 arası, digər rayon və qəsəbələrdə 0,5 – 1,5 arası əmsalların tətbiq olunması.